# ŞƏRQİ ZƏNGƏZUR VƏ QARABAĞ İQTİSADİ RAYONLARINDAKI ÇAYLARIN SU EHTİYATI VƏ YAŞIL ENERJİ POTENSİALINDAN İNTEQRASİYALI İSTİFADƏ (QURU ÇAYIN TİMSALINDA)

**Əhməd Məmmədov, Elşad Cavadzadə, Arzuman Bayramov, Dönməz Həsənli**

*"HIDROLOQ" Məhdud Məsuliyyətli Cəmiyyəti, Azərbaycan, arzuman.b@hidroloq.az*

İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində formalaşan su ehtiyatlarının respublikanın dayanıqlı su təminatında xüsusi əhəmiyyəti vardır. Bu ehtiyatlardan səmərəli və kompleks şəkildə istifadə etməklə işğaldan azad olunmuş ərazilərdə əhalinin su təminatını yaxşılaşdırmaq və turizmin inkişafına geniş imkanlar yaratmaq olar. Qarabağ ərazisində formalaşan çaylardan biri də Quru çaydır. Sutoplayan ərazisi 201.0 $km^2$ olan Quru çay əsasən Xocavənd rayonu ərazisində formalaşır. Çayın Böyük və Kiçik Kirs dağlarından formalaşan əsas qolları Tuğ və Böyük Tağlar kəndi yaxınlığında birləşir və Füzuli rayonu ərazisindın keçərək Araz çayına qovuşur. Çayın su ehtiyatından qismən suvarmada istifadə olunur. Orta illik su ehtiyatı 50 milyon kub metr təşkil edir. Kiçik Qafqazın dağ silsiləsində yerləşən bulaq və qar suları hesabına formalaşaraq heç bir çirklənməyə məruz qalmayan Quru çayın su ehtiyatından Füzuli və Xocavənd rayonlarında yaşayan əhalinin içməli su təchizatında istifadə olunması məqsədəuyğun hesab olunur. Bu çayın suyu, keyfiyyət baxımından içmə su standartlarına tam cavab verir və bu ərazidə yerləşən yaşayış məntəqələrinin dayanıqlı su təchizatı mənbəyi kimi böyük əhəmiyyət daşıyır.

Aparılmış ilkin hidroloji tədqiqat çayın məcrasında, Böyük Tağlar kəndi yaxınlığında, çayın su ehtiyatından daha səmərəli istifadə etmək məqsədilə ümumi həcmi 35.0 mln kub metrə qədər olacaq "Quruçay" su anbarının tikilməsinin mümkün olduğunu göstərir.

"Quruçay" su anbarının Böyük Tağlar kəndinin aşağı hissəsində, meşələrlə əhatə olunmuş çayın dərəsində, 750 m mütləq hündürlükdə tikilməsi nəzərdə tutulmuşdur. Su anbarının su təchizatı, balıqçılıq və tuzimin tələbləri nəzərə alınmaqla kompleks şəkildə istifadə olunması əsas prioritet götürülmüşdür. Bu məqsədlə su anbarının faydalı həcmi 20.0 mln kub metr ola bilər ki, bu da il ərzində ətrafda yaşayan 100.0 min nəfərdən çox əhalinin daimi içməli su təchizatını aparmağa imkan verəcəkdir. Su anbarının tikilməsi üçün seçilmiş ərazi hər tərəfdən meşələr və qədim tarixi olan abidələrlə əhatə olunmuşdur ki, bu da turizmin inkişafı üçün çox münasib hesab olunur.

Füzuli şəhərinin yeni işlənmiş Baş Planına əsasən gələcəkdə şəhərdə 50.0 min nəfərə qədər əhalinin yaşayacağı nəzərdə tutulur. Şəhərdə və onun ətrafında yaşayacaq əhalinin, şəhərdə yerləşəcək sənaye sahələrinin və yaşıllıqların suvarılması üçün təxminən 350-600 l/san sərfində suya ehtiyac vardır. Füzuli şəhəri və böyük kəndlər əsasən 450.0 m səviyyədən aşağı ərazilərdə yerləşir ki, bu da yeni tikiləcək su anbarının yerləşmə yerindən 300.0 metrə qədər aşağıdır.

Yeni tikiləcək "Quruçay" su anbarında toplanacaq yüksək keyfiyyətli su ehtiyatından istifadə etməklə Füzuli şəhəri və ətraf yaşayış məntəqələrinin fasiləsiz su təchizatını aparmaq mümkün olacaqdır. Füzuli şəhərindən 19 km uzaqlıqda yerləşəcək su anbarından götürülən suyun izafi təzyiqindən istifadə etməklə gücü 1.2 Mvt olan "Füzuli" Su Elektrik stansiyası da yaratmaq mümkündür.

Qeyd etmək lazımdır ki, yeni tikiləcək "Quruçay" su anbarı, hazırda tikintisi aparılan Əhmədbəyli-Füzuli-Şuşa (Zəfər yolu) magistral avtomobil yolundan 1.5 km kənarda yerləşir. Yeni tikilən yol infrastrukturu su anbarının ətrafında tikiləcək istirahət obyektlərinə çox az vaxtda getməyə imkan verəcəkdir.